# Bu ilin ilk yarısında iqtisadi sahədə əldə edilən uğurlu nəticələr dərin islahatların məntiqi nəticəsidir

***Bu ilin yanvar-iyun ayları ərzində respublikamızın əldə etdiyi uğurlu nəticələr, inkişaf göstəricilərinin davamlı olaraq yüksəlməsi həyata keçirilən siyasətin, aparılan islahatların real həyatda təsdiqini əks etdirir, sosial-iqtisadi nailiyyətlərin davamlılığı və dayanıqlı inkişafı üçün etibarlı zəmin yaradır. Təsadüfi deyildir ki, dünya qlobal maliyyə və iqtisadi böhran şəraitində inkişaf edən bir çox dövlətlər ciddi çətinliklərlə üzləşdikləri halda, Prezident İlham Əliyevin uğurlu siyasəti sayəsində Azərbaycan xarici iqtisadi təsirləri neytrallaşdırır, nəzərdə tutulan bütün sosial-iqtisadi proqramlar tam icra edilir, iqtisadiyyatımız artır. Bütün bunlara nail olunmasında isə iqtisadiyyatın şaxələndirilməsi, neftdən asılılığın minimuma endirilməsi, sahibkarlıq fəaliyyətinin genişləndirilməsi tədbirləri xüsusi önəm kəsb edir.***



Dövlət Statistika Komitəsinin cari ilin ilk yarısının yekunları ilə bağlı makroiqtisadi göstəriciləri ilə bağlı hesabatında bildirilir ki, bu dövr Azərbaycanda 63364,4 milyon manatlıq və ya əvvəlki ilin eyni dövrü ilə müqayisədə 6,2 faiz çox ümumi daxili məhsul (ÜDM) istehsal olunub. İqtisadiyyatın neft-qaz sektorunda əlavə dəyər 0,2 faiz, qeyri-neft-qaz sektorunda isə 9,6 faiz artıb.

ÜDM istehsalının 53,3 faizi sənaye, 7,7 faizi ticarət, 4,7 faizi kənd təsərrüfatı, 3,8 faizi tikinti sahələrinin payına düşüb, məhsula və idxala xalis vergilər ÜDM-in 7,6 faizini təşkil edib. Əhalinin hər nəfərinə düşən ÜDM 6304,9 manata bərabər olub.

Cari ilin yanvar-iyun aylarında əsas kapitala 6299,6 milyon manat məbləğində, yaxud 2021-ci ilin müvafiq dövrü ilə müqayisədə 0,7 faiz çox vəsait yönəldilib. Neft-qaz sektoruna yatırılan investisiyaların həcmi isə 20,7 faiz azalıb.

Son illər ölkədə investisiya fəaliyyətinin genişləndirilməsi, biznes mühitinin yaxşılaşdırılması, sənaye istehsalının artırılması və qeyri-neft sektorunun inkişaf etdirilməsinə xüsusi önəm verilib. Bütün bunlarla bərabər, sahibkarların ixrac potensialının gücləndirilməsi, potensial tərəfdaşların tapılması və birgə əməkdaşlıq layihələrinin həyata keçirilməsi də diqqət mərkəzində saxlanılıb.

Hazırda respublikada qeyri-neft sektorunun şaxələndirilməsi, qeyri-neft sənayesinin inkişafı, Azərbaycan məhsullarının ixrac coğrafiyasının genişləndirilməsi məqsədilə intensiv tədbirlər həyata keçirilir. Bunun nəticəsidir ki, qeyri-neft-qaz sektoruna yönəldilən vəsaitin həcmi 18,5 faiz artıb. İstifadə olunan vəsaitin 3781,3 milyon manatı və ya 60 faizi məhsul istehsalı sahələrinə, 2131,2 milyon manatı (33,8 faizi) xidmət sahələrinə, 387,1 milyon manatı (6,2 faizi) isə yaşayış evlərinin tikintisinə sərf olunub.

Əsas kapitala yönəldilmiş vəsaitlərin 4693,3 milyon manatını və ya 74,5 faizini daxili vəsaitlər təşkil edib. Bu vəsaitlərin 4564,7 milyon manatı və ya 72,5 faizi bilavasitə tikinti-quraşdırma işlərinin yerinə yetirilməsinə sərf olunub.

Əsas kapitala yönəldilmiş vəsaitin ümumi dəyərində müəssisə və təşkilatların vəsaitləri 53,2 faiz, büdcə vəsaitləri 31,2 faiz, əhalinin şəxsi vəsaitləri 7,6 faiz, bank kreditləri isə 3 faiz təşkil etmişdir.

Sənaye müəssisələri və bu sahədə fəaliyyət göstərən fərdi sahibkarlar tərəfindən 2022-ci ilin yanvar-iyun aylarında 42,2 milyard manatlıq və ya 2021-ci ilin müvafiq dövrü ilə müqayisədə 2,1 faiz çox sənaye məhsulu istehsal edilib. Neft-qaz sektorunda məhsul istehsalı 0,6 faiz, qeyri neft-qaz sektorunda isə 11,5 faiz artıb.

Sənaye məhsulunun 75,7 faizi mədənçıxarma, 20,4 faizi emal, 3,4 faizi elektrik enerjisi, 0,5 faizi isə su təchizatı sektorlarında istehsal olunub.

Qeyri-neft sənayesinin sürətli inkişafında sənaye zonaları, aqroparklar əlverişli mexanizmdir. Ölkədə yaradılan sənaye zonaları ixrac potensialının artırılmasına, innovativ və yüksək texnologiyalara əsaslanan rəqabətqabiliyyətli sənayenin inkişafına, ölkəyə valyuta axınının, investisiyaların artmasına yeni imkanlar açır. Bu ilin 6 ayında sənaye zonalarında istehsal 52,9 faiz, ixrac isə 2 dəfə artıb. Aprelin 1-nə qədər sənaye zonalarına ümumilikdə sahibkarlar tərəfindən 6,4 milyard manat investisiya yatırılıb. Sənaye parklarında 10 mindən çox daimi iş yeri yaradılıb.

Aqroparkların da Azərbaycan iqtisadiyyatında rolu artır. Ölkədə artıq 44 aqropark fəaliyyətə başlayıb, digərlərində isə layihələndirmə və tikinti işləri aparılır. 32 rayon üzrə ümumi layihə dəyəri 2,3 milyard manat olan 51 aqroparkın yaradılması üzrə işlər davam etdirilir. İndiyədək 25 aqroparka 184 milyon manat güzəştli kredit ayrılıb. Aqroparklarda ümumi 4 500-dək daimi, 6 300-dən çox isə mövsümi işçi çalışır. Azərbaycandakı aqroparkların səmərəli fəaliyyət göstərməsi məqsədilə ilkin mərhələdə 6 əsas, 11 alt klasterin formalaşdırılması üzrə işlər aparılır.

Azərbaycanın xarici iqtisadi əlaqələrinin genişlənməsində önəmli rol oynayan məsələlərdən biri də respublikamızın nəqliyyat infrastrukturunun müasir dünya standartlarına uyğunlaşdırılması, tranzit potensialının daha da artırılması ilə bağlıdır. Elə buna görə də həyata keçirilən tədbirlər və qlobal miqyaslı təşəbbüslər ölkəmizin sosial-iqtisadi inkişafına əsaslı töhfə verməklə, Azərbaycanı mühüm nəqliyyat qovşağına və dəhlizlərin keçdiyi məkana çevirib.

Son illər ərzində ölkəmizdə nəqliyyat infrastrukturunun inkişafı ilə bağlı irimiqyaslı layihələr həyata keçirilib, bu sahəyə böyük həcmli dövlət investisiyaları yönəldilib. Avtomobil yollarının və dəmir yolu xətlərinin, xüsusilə Gürcüstan, Rusiya və İran istiqamətində ölkə ərazisindən keçən magistral yolların beynəlxalq standartlar əsasında yenidən qurulması, Bakıda və regionlarda beynəlxalq hava limanlarının, Bakı Beynəlxalq Dəniz Ticarət Limanının tikintisi, Şərq-Qərb və Şimal-Cənub nəqliyyat dəhlizlərinin inkişafı istiqamətində gerçəkləşdirilən layihələr Azərbaycanın nəqliyyat infrastrukturunun inkişafında əhəmiyyətli rol oynamaqla yanaşı, ölkəmizin tranzit potensialını daha da gücləndirib.

Həyata keçirilən bütün bu tədbirlər nəticəsində hesabat dövründə Azərbaycanın xarici ticarət əlaqələrində də müsbət nəticələr qeydə alınıb. Belə ki, cari ilin yanvar-may aylarında Azərbaycan Respublikasının hüquqi və fiziki şəxsləri tərəfindən dünyanın 158 ölkəsi ilə ticarət əməliyyatları həyata keçirilib, 109 ölkəyə məhsul ixrac olunub, 146 ölkədən idxal edilib.

Gömrük orqanlarında qeydiyyatı aparılan, lakin gömrük rəsmiləşdirilməsi tam başa çatdırılmayan ixrac olunan xam neft və təbii qazın statistik qiymətləndirilən dəyəri nəzərə alınmaqla 2022-ci ilin yanvar-may aylarında ölkənin xarici ticarət dövriyyəsi 21348,2 milyon ABŞ dolları təşkil edib. Ticarət dövriyyəsinin 16212,6 milyon dollarını və ya 75,9 faizini ölkədən ixrac olunan məhsulların, 5135,6 milyon dollarını (24,1 faizini) isə idxal məhsullarının dəyəri təşkil edib.

***"Xalq qəzeti"***

Xalq qəzeti .- 2022.- 29 iyul.- S.4.